UOT 159.9

***Tura Əli qızı Əliyeva,***
*Gəncə Dövlət Universitetinin müəllimi*

# FƏRDİ İŞ PROSESİNDƏ NƏZARƏT VƏ ÖZÜNƏNƏZARƏTİN FORMALAŞDIRILMASI YOLLARI VƏ VASİTƏLƏRİ

***Тура Али гызы Алиева,***
*преподаватель Гянджинского Государственного Университета*

# ПУТИ И СРЕДСТВА ФОРМИРОВАНИЯ КОНТРОЛЯ И САМОКОНТРОЛЯ В ПРОЦЕССЕ ИНДИВИДУАЛЬНОЙ РАБОТЫ

***Tura Ali Aliyeva,***
*teacher at Ganja State University*

# METHODS AND MEANS OF FORMATION OF CONTROL AND SELF-CONTROL IN THE PROCESS OF INDIVIDUAL WORK

**Xülasə.** Tədqiqatın nəticələri göstərdi ki, şagirdlər özünəməxsus fərdi xüsusiyyətlərə malik olduqlarından kollektiv şəkildə görülən iş tapşırığın bütün şagirdlər tərəfindən eyni dərəcədə dərk olunmasına, çətinliklərin öhdəsindən eyni dərəcədə gəlinməsinə və onun eyni dərəcədə səmərəli şəkildə aradan qaldırılmasına imkan vermir. Sinifdə kollektiv iş zamanı tədris tapşırığının kollektiv şəkildə, bütün sinfin iştirakı ilə həllinə dair illüziya yaradılır. Kollektiv işdən sonra tədris materialının necə mənimsənildiyinin fərdi səviyyəsini üzə çıxarmaq məqsədilə fərdi yoxlama təşkil etməklə yaranmış illüziyanı asanlıqla dağıtmaq olar. Şagirdin fərdi xüsusiyyətlərini, bu və ya digər tədris materialını qavramaq imkanlarını öyrənərək müəllim, mümkün qədər təlim fəaliyyətində şagirdin səhvlərini və qeyri-müəyyənliyini aradan qaldırmalı, fərdi iş əsasında onun təlim fəaliyyətində müstəqilliyinə nail olmalıdır.

***Açar sözlər:*** *fərdi iş, nəzarət və özünənəzarət, kollektiv iş, psixi proseslər, təlim tapşırığı, fərdi səviyyə.*

**Резюме.** Результаты исследования показали, что поскольку школьники имеют свои индивидуальные особенности, коллективная работа не позволяет всем школьникам в одинаковой степени понять задачу, справляться с трудностями и в одинаковой степени эффективно ее преодолевать. При групповой работе на уроке создается иллюзия коллективного решения учебной задачи с участием всего класса. Иллюзию можно легко развеять, организовав индивидуальные проверки, чтобы выявить индивидуальный уровень усвоения учебного материала после групповой работы. Изучая индивидуальные особенности ученика, умение осмысливать тот или иной учебный материал, преподаватель должен максимально исключить ошибки и неопределенность ученика в процессе обучения, добиться самостоятельности в своей учебной деятельности на основе индивидуальной работы.

***Ключевые слова:*** *индивидуальная работа, контроль и самоконтроль, коллективная работа, психические процессы, учебное задание, индивидуальный уровень.*

**Summary.** Results of study showed, that because pupils have their own individual characteristics, it does not allow all pupils to understand the task done collectively, to cope with difficulties equally and to overcome them equally effectively. During group work in the classroom, the illusion of solving the task in a collective way with the participation of the whole class is created. By learning to comprehend, the teacher should eliminate the pupil's mistakes and uncertainties in the learning process as much as possible, and achieve independence in his or her learning activities on the basis of individual work.

***Key words:*** *individual work, control and self-control, collective work, psychical processes, learning task, individual level.*

Əvvəllərdə qeyd etdiyimiz kimi, şagirdlərlə aparılan kollektiv işin çoxlu sayda müsbət tərəfləri olmasına baxmayaraq, o, müəyyən çatışmazlıqlarla da xarakterizə olunur. Şagirdlər fərdi xüsusiyyətlərə malik olduqlarından kollektiv iş, tapşırığın bütün şagirdlər tərəfindən eyni dərəcədə dərk olunmasına, çətinliklərin öhdəsindən eyni dərəcədə gəlinməsinə və onun eyni dərəcədə səmərəli şəkildə aradan qaldırılmasına imkan vermir. Lakin qeyd etdiyimiz kimi, sinifdə kollektiv iş zamanı tədris tapşırığının kollektiv şəkildə, bütün sinfin iştirakı ilə həllinə dair illüziya yaradılır. Kollektiv işdən sonra tədris materialının necə mənimsənildiyinin fərdi səviyyəsini üzə çıxarmaq məqsədilə fərdi yoxlama təşkil etməklə yaranmış illüziyanı asanlıqla dağıtmaq olar. Fərdi yoxlama zamanı bir daha əmin oluruq ki, şagirdlərin əksəriyyəti analoji tapşırığı müstəqil surətdə həll edə bilmirlər. Bu ondan irəli gəlir ki, mənimsəmə üçün vacib olan təfəkkür, diqqət, yaddaş və s. kimi psixi proseslər şagirdlərdə bir-birindən nəzərə çarpacaq dərəcədə fərqlənir.

Şagirdlərin məhz bu fərdi xüsusiyyətləri və onlarda bacarıq və vərdişlərin müxtəlif səviyyələrdə inkişafı şagirdlərdə fərdi işin aparılmasını vacib edir. Müəllimin məqsədi kollektiv işi müşayət edəcək fərdi iş vasitəsilə çatışmazlıqları aradan qaldırmaqdan ibarət olmalıdır. Ona görə də təlim tapşırığını birlikdə həll etdikdən sonra, onun məzmunu və həlli yolları ilə şagirdləri tanış etdikdən sonra, müəllim, tədris təcrübəsində çox zaman rast gəlindiyi kimi, fərdi səviyyənin və yoxlama işlərinin fərdi icrasının yoxlanılmasına keçməməli, onun yerinə bu və ya digər təlim materialının şagirdlərə tam aydın olması, onlar tərəfindən tam mənimsənilməsi üçün müəyyən işlər aparmalıdır.

Kollektiv iş zamanı təlim tapşırığının həllinə bütün sinif cəlb olunur. Təlim tapşırığını bir şagird deyil, bütün şagirdlər çox və ya az fəallıq göstərməklə həll edirlər. Hər bir şagird təlim fəaliyyəti zamanı, müəyyən hissəni, müəyyən əməliyyatı icra edir. Deməli, verilən tapşırığın həllinə yönəldilmiş kollektiv təlim fəaliyyəti müxtəlif şagirdlər tərəfindən müəllimin rəhbərliyi və onun fəal köməyi sayəsində həyata keçirilir. Əldə olunmuş nəticə bütün sinfin əməkdaşlığının nəticəsidir.

Fərdi iş zamanı isə təlim tapşırığının həlli prosesi tamamilə başqa şəkildə gedir. Bu zaman hər hansı bir tədris tapşırığının bütün sinif tərəfindən həlli deyil, müxtəlif təlim tapşırıqlarının icrası nəzərdə tutulur. Sinfin hər bir şagirdi bu və ya digər təlim tapşırığının fərdi icraçısına çevrilərək, bu tapşırığı müəllimin bilavasitə köməyi olmadan yerinə yetirir. Təlim işinin bu iki – fərdi və kollektiv – prosesi sxematik olaraq sxem №1 və sxem №2-də təsvir olunmuşdur.

**Sxem № 1**

**Kollektiv işin sxemi**




***Sxem № 2***

***Fərdi işin sxemi***



Verilmiş sxemlərdə hər bir dairəcik ayrılıqda bir şagirdi göstərir. Dairəciklərdən sağ tərəfdə A, B, C, D hərfləri ilə işarələnmiş həll etmək üçün hazırlanmış təlim tapşırıqları verilmişdir. Şagird və təlim materialı arasındakı dairə isə müəllimə işarədir. Oxlar vasitəsilə təlim fəaliyyəti zamanı tapşırığın həlli üçün şagirdin istifadə etməli olduğu yollar və istiqamətlər göstərilir.

Sxem № 1- dən göründüyü kimi, həll ediləcək A tapşırığı müəllim tərəfindən metodiki cəhətdən yenilənərək şagirdlərə verilir və bu, sxemdə oxlarla işarə edilmişdir (A tapşırığından oxlar müəllimə, ondan isə şagirdə yönəlir). A tapşırığını həll etmək üçün hər bir şagird təlim fəaliyyətinə məxsus hər hansı əməliyyatları icra edir.

Şagirdlərin icra etdikləri əməliyyatlar müəllim tərəfindən müəyyən yoxlamalara və dəyişikliklərə məruz qaldıqdan sonra təlim fəaliyyətinin yekununda birləşdirilir ki, bu da sxemdə əsas oxlarla işarə olunmuşdur. Şagird tərəfindən icra olunacaq bu və ya başqa əməliyyat təlim fəaliyyətində müəyyən yer tutmamışdan öncə müəllimin nəzarətindən keçir. B, C, D və s. kimi tapşırıqların həlli və onlar üzərində iş də bu şəkildə gedir.

Qeyd olunduğu kimi, baxdığımız sxem № 1 şagirdlərlə aparılan kollektiv iş prosesini əks etdirir. Şagirdlərlə aparılan fərdi iş prosesinin sxeminə nəzər salaq (sxem 2).

Sxemimizdən aydın olur ki, fərdi iş prosesində təlim tapşırığı tamamilə hər bir şagirdə verilir. Müəllim tərəfindən konkret şagird üçün xüsusi olaraq metodiki cəhətdən yenilənmiş A tapşırığı, tam şəkildə məsələnin məntiqi ardıcıllığına uyğun şagird tərəfindən həll edilir, lazım gəldikdə isə müəllim köməklik edir.

B tapşırığı başqa şagirdə verilir ki, o da tapşırığı fərdi həll edir, üçüncü şagirdə C tapşırığı, dördüncüyə D və s. verilir. Asan olsun deyə məsələ və onunla bağlı oxları biz sxemdə müxtəlif rənglərlə əks etdirmişik. Sxemdən aydın olur ki, fərdi iş prosesində hər bir şagirdə həll etmək üçün ayrıca tapşırıq verilir və təlim fəaliyyətinin nəticəsi də məhz həmin şagirdə aid olur.

Şagirdlərlə aparılan fərdi işin spesifikasını və ondan irəli gələn nəzarət və özünənəzarətin formalaşdırılmasının xüsusiyyətlərini nəzərdən keçirək.

Fərdi iş müəllimdən böyük əmək və diqqət tələb edir. Müəllim hər zaman öz şagirdləri ilə iş, əməkdaşlıq münasibətlərində olmalı, onların davranış, fəaliyyət, xarakterlərini müşahidə etməli və onların fərdi xüsusiyyətlərini öyrənməlidir. Bu və ya digər şagirdin fərdi xüsusiyyətləri haqqında məlumat müəllimin onlarla işini, təlim məsələlərinin və tapşırıqlarının düzgün seçilməsini asanlaşdırır ki, bu da təlim fəaliyyəti zamanı şagirdlərdə mövcud olan çatışmazlıqların aradan qaldırılmasına kömək edir.

Şagirdlərlə aparılan fərdi işin böyük əhəmiyyətini və mürəkkəbliyini qeyd edərək prof. A.N. Abbasov bildirir ki, tapşırıqlar verilərkən şagirdləri eyniləşdirmək yolverilməzdir [1, s. 86]. Güclü və zəif oxuyan şagirdlərin tapşırıqları bir-birindən fərqlənməlidir. Eyni tədris materialı tətbiq olunan şəraitdə zəif oxuyan şagirdə elə tapşırıq verilməlidir ki, o, təlim materialını, onun həlli qaydalarını mənimsəyib, səhvlərə yol verməsin. Yaxşı oxuyan şagirdlər üçün tapşırıqlar isə biliklərin zənginləşməsinə və daha da təkmilləşməsinə xidmət etməlidir. "Nisbətən yaxşı oxuyan şagirdlərə verilən tapşırıq onu irəli aparmasa da, onun biliklərini zənginləşdirib, keyfiyyətini yaxşılaşdırması üçün" [2, s. 107] vacibdir.

Təlim prosesində şagirdlərə fərdi yanaşmaya dair son maraqlı tədqiqat E.S. Rabunski [4] tərəfindən aparılmışdır. O qeyd edir ki, tapşırıqlar bir-birindən məqsədinə, həcminə, üsul və icra olunma vaxtına görə də fərqlənməlidirlər. Şagirdlərin bir hissəsində mətn üzərində müstəqil işləmək bacarığı, digərində – qrammatik qaydalara dair biliklər, üçüncüdə – oxu texnikası, dördüncüdə isə sual qurmaq bacarığı və s möhkəmləndirilməlidir.

Bu təlim prosesində, şagirdlərlə aparılan fərdi işin xüsusiyyətlərindən irəli gələn nəzarət bacarığı da özünəməxsus şəkildə formalaşır. Kollektiv iş prosesinə baxdıqda görürük ki, onun spesifikası – təlim tapşırığının kollektiv həlli, birgə iş, qarşılıqlı kömək, qarşılıqlı yoxlama – nəzarət və qarşılıqlı nəzarətin formalaşdırılmasına əsas verir və bu da, öz növbəsində özünənəzarətin inkişafına kömək edir.

Fərdi iş prosesinə münasibətdə isə bu vəziyyət tamamilə başqadır. Bu iş qarşılıqlı nəzarəti kənarlaşdırır, yəni yoldaşının icra etdiyi təlim fəaliyyətinə nəzarət şagirdin özünənəzarətinə istiqamətlənir, ona kömək edir və onu inkişafın daha yüksək pilləsinə qaldırır.

Özünənəzarətin didaktik əsaslarının formalaşdırılmasını tədqiq edərək A.S. Lında qeyd edir ki: "Fərdi özünənəzarət əsas və ən mürəkkəb formadır. Hər bir şagird onu müstəqil yerinə yetirir. Məhz bu cür yoxlama sərbəst işin vacib elementidir, onun keyfiyyətli həllinin əsas şərtidir" [3].

Artıq qeyd etdiyimiz kimi, bu iş prosesi müəllimlər üçün müəyyən çətinliklər yaradır. Şagirdin fərdi xüsusiyyətlərini, bu və ya digər tədris materialını qavramaq imkanlarını öyrənərək müəllim, mümkün qədər təlim fəaliyyətində şagirdin səhvlərini və qeyri-müəyyənliyini aradan qaldırmalı, fərdi iş əsasında onun təlim fəaliyyətində müstəqilliyinə nail olmalıdır.

**Problemin aktuallığı.** Şəxsiyyətin bütün fəaliyyətini və ictimai qarşılıqlı münasibətlərini öz şəxsi fəaliyyətləri istiqamətləndirir. Bu fəaliyyətin düzgün qiymətləndirilməsi və ona nəzarəti hərtərəfli inkişaf etmiş və formalaşmış insanın mühüm xüsusiyyəti hesab olunur. Nəzarət və özünənəzarət elə bacarıqlardır ki, onun ictimai fəaliyyətə daxil edilməsi insanı mümkün səhvlərdən və uğursuzluqlardan sığortalayır. Bu baxımdan da problemi aktual hesab etmək olar.

**Tədqiqatın elmi yeniliyi** pedaqoji elmdə kifayət qədər öyrənilməmiş problemin həllinə – kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarətin formalaşmasının didaktik əsasının və metodikasının tədqiqinə cəhd etməkdən, uşaqlarla kollektiv və fərdi iş prosesində nəzarət və özünənəzarətin formalaşdırılmasının yolları və vasitələrinin müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın elmi nəticələrindən orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri uşaqlarda nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması məqsədi ilə, habelə valideynlər uşaqların ev tapşırıqlarının yerinə yetirilməsi zamanı istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2010, 360 s.
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. I kitab. Bakı: ADPU, 2010, s. 96-111
3. Лында А.С. Дидактические основы формирования самоконтроля в процессе самостоятельной учебной работы учащихся: Автореф. дис... докт. пед. наук. М., 1978, 38с.
4. Рабунский Е.С. Индивидуальный подход в процессе обучения школьников. М.: Педагогика, 2018, 182с.
5. Филь В.В. Особенности дедуктивных доказательств у младших школьников // Почеткова школа, 2001, № 5, с.80-91

**E-mail:** tureeliyeva@mail.ru

**Rəyçilər:** *ped. elm.dok., prof.* **Ş.T. Tağıyev**
*ped. ü. fəls. dok.* **T.Ə. Nəbiyeva**

**Redaksiyaya daxil olub:** 16.02.2021